**https://doi.org/10.58225/tim.2025-1-150-155**

**T.B.Həsənova**
***baş müəllim, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***ORCİD 0000-0001-8382-3675***
***turkan.hasanova@azmiu.edu.az***
**G.İ.Mahmudova**
***magistrant, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***gulumusayeva98@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 10.02.2025*
*The article was received by editorial board on 10.02.2025*
*Статья принята к печати 10.02.2025*

# TİKİNTİ SƏNAYESİ MÜƏSSİSƏSİNİN İNNOVASİYA POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

*Məqalədə innovasiyaların mahiyyəti açıqlanmış, tikinti sənayesi müəssisəsinin innovasiya potensialı qiymətləndirilmiş, onu səciyyələndirən istiqamətlərin geniş şərhi verilmişdir.*

*Daha sonra müəssisədə innovasiya imkanlarını qiymətləndirməyə və innovasiyaların inkişaf strategiyasını təyin edilməsini şərtləndirən əsas parametr kimi innovasiya potensialının struktur sxemi verilmiş və onun tərkib hissələri tədqiq edilmişdir. İnnovasiya potensialı idarəetmə qərarları və innovasiya strategiyasının reallaşdırılmasından asılı olduğu üçün onun kompleks qiymətləndirilməsi zəruridir.Sonda innovasiya potensialının tikinti sənayesi müəssisələrində yeniliklərin istehsalına hazırlığı və bacarığı kimi nəzərdən keçirilmiş, innovasiya potensialının proses sxemi əsasında yeniliklər portfelinin firmanın bütün fəaliyyət sferalarındakı yeniliklərdən ibarət olduğu vurğulanmışdır.*

***Açar sözlər:*** *innovasiya, texnologiya, innovasiya mədəniyyəti, innovasiya potensialı, tikinti sənayesi müəssisələri, metod, informasiya potensialı, yeniliklər portfeli.*

## GİRİŞ

İnnovasiya potensialı- innovasiya yönümlü iqtisadiyyatın əsasını təşkil edir. O,iqtisadi inkişafın mənbəyi kimi qəbul edilməklə milli sərvətlərin vacib tərkib hissəsi hesab olunur. İnnovasiya prosesləri və innovasiya fəaliyyətinin rolunun artması onların nəzəri-metodoloji və tətbiqi aspektlərinin elmi əsaslanmasına yeni tələblərə obyektiv zərurət yaratmışdır.

Müasir mərhələdə innovasiya iqtisadiyyatına keçid ölkəmizin dövlət siyasətinin vacib prioritetlərindən biridir.

Məlum olduğu kimi innovasiyalar texnika,texnologiya,idarəetmə,habelə əməyin təşkili sahəsində elmi nailiyyətlərə və qabaqcıl təcrübəyə əsaslanan yeniliklərdir.

Tikintidə innovasiyalar dedikdə isə tikinti istehsalının səmərəliliyinin yüksəldilməsi, tikinti məhsulunun keyfiyyətinin yaxşılaşdırılması, onun rəqabət qabiliyyətliliyinin artırılmasını təmin edən tikintinin təşkili və idarə olunmasının mütərəqqi metodları, elmi-texniki tərəqqinin nəticələrinin istehsalata tətbiqi başa düşülür (3,səh.173 ).

Təsərrüfat subyektlərində innovasiyalara meyillilik hər şeydən əvvəl bazardakı rəqabət mübarizəsinin mövcudluğundan irəli gəlir.Bazarın tələbinə, və istehlakçıların zövqünə uyğun, rəqabətə davamlı məhsul istehsal etmək üçün innovasiya prosesinin bütün mərhələlərini diqqətdə saxlamaq zəruridir.

İnnovasiya potensialı - innovasiya prosesinin başlıca elementi kimi.
Sistemin təkmilləşdirilməsi və ya yenilənməsini əks etdirən,texniki liderliyi şərtləndirən innovasiya potensialı innovasiya prosesinin başlıca elementlərindən biri hesab olunur.

İnnovasiya potensialının çoxlu sayda tərifləri vardır. O, sadəcə yenilikləri yaratma imkanı, innovasiyaların həyata keçirilməsi deyil, habelə yeniliyin gələcəkdə dünya səviyyəsinə uyğun istifadəyə hazır olması deməkdir.

Müəssisədə innovasiya imkanlarını qiymətləndirməyə və innovasiyaların inkişaf strategiyasını təyin edilməsini şərtləndirən əsas parametr innovasiya potensialının səviyyəsidir. İnnovasiya potensialı idarəetmə qərarları və innovasiya startegiyasının reallaşdırılmasından asılı olduğu üçün onun kompleks qiymətləndirilməsi lazımdır.

İqtisadi mənbələrdə innovosiya potensialının qiymətləndirilməsində iki yanaşmadan istifadə olunması göstərilmişdir:

- konkret layihənin yerinə yetirilməsi imkanlarının aşkar edilməsi məqsədilə göstəricilər sistemi üzrə qiymətləndirmə;

- diaqnostikaya əsasən ekspert metodlarla qiymətləndirmə,yəni daxili və xarici parametrlərin vəziyyətinin tədqiqi.

İnnovasiya potensialının qiymətləndirilməsi üçün təklif edilən üsullar onun quruluşunu tamamilə əks etdirmir, Müəssisənin innovasiya potensialı seqmentlər üzrə aşağıdakı kimi quruluşa malikdir (şəkil 1).




**Şəkil 1. İnnovasiya potensialının struktur sxemi**

İnnovasiya potensialının qiymətləndirilməsi.

İnnovasiya potensialının tərkib hissəsi bir sıra parametrlərə əsasən qiymətləndirilir. Onlardan bəzilərini nəzərdən keçirək.

1.Texnoloji-istehsalat potensialının tərkibinə tətbiq olunan texnologiyalar və onların növləri, əsas istehsal fondlarının vəziyyəti, texnoloji xidmət, kompüter sistemləri,avadanlıq və materiallar, keyfiyyət sistemi və s. daxildir.

2. Kadr potensialı.Bu göstərici innovasiya prosesini insan resursları, innovasiyaların yaradılması və yayılmasına cəlb edilən personalın ixtisas və yaş tərkibinə görə təminatını xarakterizə edir.

Kadr potensialı personalın sayı, strukturu, tərkibi, ixtisas səviyyəsi kimi göstə-ricilərlə xarakterizə olunur. Bu zaman müəssisənin innovasiya layihələrinə cəlb edilmiş elmi-texniki mütəxəssislərin payı böyük məna kəsb edir:

Əksər tikinti sənaye müəssisələri üçün orta yaş həddinin daima yüksəlməsi, elmi kadrların yaşlanması xarakterikdir.Buna görə də innovasiya potensialı sisteminə cəlb edilmiş personalın yaş həddinin qiymətləndirmə metodikasına daxil edilməsi məqsədəuyğundur.

- innovasiya fəaliyyətilə məşğul olan, 50 yaşdan yuxarı olan, elmi-texniki sahədə çalışan mütəxəssislərin sayı aşağıdakı kimi hesablanır:

$$B_1 = \frac{B}{Ч_{НТС}} 100\%$$

Burada $B$ - 50 yaşdan yuxarı olan, elmi-texniki sahədə çalışan mütəxəssislərin sayı.

Yeniliklərin hazırlanması ilə məşğul olan personalın əməyinin motivasiyasının vacib amillərindən biri, əmək haqqının səviyyəsidir, buna görə də elmi-texniki mütəxəssislərin əmək haqqının səviyyəsi, müəssisə üzrə orta əmək haqqına nisbətən hesablanmalıdır.

3.İnformasiya potensialı aşağıdakı göstəricilərə səciyyələnir::

- innovasiya fəaliyyəti üçün zəruri elmi-texniki və hüquqi ədəbiyyatların cəmi;
- kommunikasiya sahəsində innovasiya imkanları;
- kompyuter sistemləri;
- informasiyanin müdafiə sistemi və b.

İnformasiya aşağıdakı xarakterik cəhətlərə malik olmalıdır: vaxtlı-vaxtında olması, əlyetərliliyi, inamlılıq, kompleksliliк,aktuallıq. İnformasiyanın müdafiə sistemini layihələşdirərkən firmanın gəlirinin artırmaq və ya saxlamaq məqsədilə informasiyanı almaq;

4. Maliyyə potensialı; O, iki mərhələdə qiymətləndirilir:

1) İnnovasiya layihəsinin ilkin qiymətləndirilməsində aşağıdakılar tədqiq edilir:

- layihənin hazırlanması və əldə edilməsi üçün xərclər.
- layihənin reallaşdırılması üçün xərclər. Bu xərclərə avadanlığın əldə edilməsi, binaların, qurğuların bərpası, hazırlanması, işə salınması, mənimsənilməsi.
- ilkin kapital;
- layihə üzrə məmulatın istehsalına çəkilən cari xərclər.

2) Müəssisənin maliyyə vəziyyətinin qiymətləndirilməsi aşağıdakı göstəricilərin əsasında aparılır:

- ödənişqabiliyyətlilik;
- kreditqabiliyyətlilik;
- maliyyə dayanıqlılığı;
- aktivlərin və şəxsi vəsaitlərin səviyyəsinin qiymətləndirilməsi.Bu müəs-sisənin əlavə imkanlarının aşkar edilməsi üçün vacibdir;
- daxili və xarici mənbələr. Onlara dövlət, yerli, bələdiyyə maliyyələşdirmə proqramları,sifariş-müqavilələr və s. aiddir.

Müəssisənin innovasiya potensialının maliyyə seqmentini müəyyən etmək üçün birbaşa innovasiya fəaliyyətinə çəkilən xərclərin strukturuna aid göstəricilər qrupunu tətbiq etmək məqsədəuyğundur. Məlumdur ki, innovasiya fəaliyyətinin xərcləri və nəticələri arasında çox zaman birbaşa asılılıq müşahidə edilir. İnnovasiya potensialının xərc göstəricilərinin qiymətləndirilməsi üçün çox zaman aşağıdakılardan istifadə etmək təklif edilir:

- elmi-tədqiqat və təcrübə-konstrukor işlərə çəkilən xərclər;
- nəzərdən keçirilən müddət ərzində müəssisənin yeni texnologiya əldə etmək üçün xərcləri.

Göstəricilərin xassələrinə əsasən tikinti sənayesi müəssisəsinin texnolojiliyi və istehsal potensialının vəziyyəti barədə nəticələr əldə etmək olar.

Resurs növlərinin balanslaşdırılması və onların proporsiyalarının mükəmməlləşdirilməsi üzərində çalışarkən, müəssisə öz təşkilati imkanlarını yaxşılaşdırır, innovasiya potensialına təsir edə bilir.

5. Elmi-texniki potensial. Sxemin mərkəzində yerləşir və sıx bağlı olduğu resurs blokuna əsaslanır. Buraya istifadəyə təklif oluna bilinəcək yeniliklər, ixtiralar, markalar,sənaye nümunələri, nou-hau, innovasiya proqramları və layihələri, həmçinin müəssisənin əməkdaşlıq etdiyi innovasiya, elmi-tədqiqat idarələri şəbəkəsi aiddir.

Müəssisənin innovasiya potensialı yalnız yeniliyin işlənməsini deyil, həmçinin onun praktiki reallaşdırılması sferasına tətbiqini təmin etməlidir. Məlumdur ki, ideyaların yalnız 10-30 % ixtiraya çevrilə bilər, 0,5-3,5% ixtiralar isə özünü doğrulda bilər. Elmi-texniki işlərin sayının

ümumi saya nisbətən nə qədər çoxu praktiki tətbiq taparsa, müəssisənin innovasiya potensialından bir o qədər səmərəli istifadə oluna bilər. Bu göstərici müəssisənin innovasiya imkanlarını kompleks qiymətləndirmək üçün vacibdir.

6.Təşkilatçılıq potensialına planlaşdırma, qərar qəbul etmə, nəzarət, kommunikasiya sistemləri, idxal proseslərinin təşkili, nəzərdən keçirilən obyektin əməkdaşlıq etdiyi elmi-texniki idarələr, layihə-konstruktiv, innovasiya müəssisələri daxildir.

İnnovasiya potensialının tərkibini təhlil edərkən aşağıdakı göstəricilər qiymətləndirilir:

- konfiqurasiya (diapozon və idarəetmə səviyyələri);
- üfüqi və şaquli, birbaşa və əks, daxili və xarici əlaqələrin keyfiyyəti;
- münasibətlər (hüquqların bölünməsi və məsuliyyətin artırılması).

7. İdarəçilik potensialına innovasiya fəaliyyətinin müasir formaları, optimal təşkilati struktur və menecment sistemi, strateji və taktiki planlaşdırma sistemi, inkişaf və dəyişikliklər mərhələlərində modelin korrektirovkasının ümumi təşkilatilik, nəzarətin üsul və qaydaları daxildir.

8. İnnovasiya mədəniyyəti – müəssisənin, personalın, rəhbərliyin əldə edilən yeniliyin qəbul edilməsi, tətbiqi, uğursuzluqlara və ətraf mühitin dəyişməsinə hazırlığıdır. İnnovasiya mədəniyyətini şərtləndirən əsas keyfiyyət və kəmiyyət parametrləri kommunikativ sistem və ünsiyyət dili, qeyri-maliyyə motivasiya sistemi, maliyyə motivasiya sistemi tövsiyə modelləri,əməkdaşlar tərəfindən kompaniyanın dəyərlərinin öz dəyərləri kimi qəbul edilməsidir.

İnnovasiya mədəniyyəti insanları yeni ideyaları qəbul etməsi, həyatın bütün sferalarında bu yenilikləri dəstəkləməsi və reallaşdırılmasını təmin etməsidir.

İnnovasiya potensialının istehlakçı seqmenti.

İnnovasiya potensialının istehlakçı seqmenti onun vacib ünsürlərindən biridir. Məhz onun köməyilə konkret innovasiyanın istehlakçıya nə dərəcədə lazım olduğu və gələcəkdə nə dərəcədə istifadə ediləcəyini müəyyən etmək olur.

İstehlakçı potensialını aşağıdakı parametrlərlə qiymətləndirmək təklif edilir:

- məmulatın dəyər ifadəsi və çeşidlərlə reallaşdırılmasının həcmi;
- əsas xammal istehsalçıları, məmulatın istehlakçıları;
- əsas idxal bazarları, anbarda qalan hazır məmulatın dəyəri və natural ölçülərlə ifadəsi;
- istehsal edilən məmulatın maksimal və minimal qiymət həddi;
- rəqabət strategiyası.

İnnovasiya potensialı müəssisənin yeniliklərin istehsalına hazırlığı və bacarığı kimi nəzərdən keçirildiyi üçün təqdim edilən sxemə (şəkil 1) elementlər (şəkil 2) əlavə etmək lazımdır.




**Şəkil 2. İnnovasiya potensialının proses sxemi**

Yeniliklər portfeli firmanın bütün fəaliyyət sferalarındakı yeniliklərdən ibarət ola bilər. Onlar alınmış və ya şəxsən işlənilmiş, müəssisədə satışa təklif olunmuş və tətbiq edilmiş ola bilər. Yeni tətbiqlər portfeli–"bu yeniliklərin tətbiqinin strateji planıdır"[4]. Əgər yeniliklər portfeli müəssisənin mövcud resursları,yenilikləri,potensialının özünəməxsus toplusu və istifadəyə hazırlığını göstərirsə, yeni tətbiqlər portfeli bunun nə qədər mümkün olduğunu, müəssisənin bu yeniliklərin reallaşdırması imkanlarını açıqlayır. İnnovasiya potensialının strukturu və onun

qiymətləndirmə parametrlərinin belə təqdimi innovasiya potensialının kompleks və dərin təhlilini təmin edir.

Tikinti sənayesi müəssisələrinin innovasiya potensialının tədqiqi zamanı təqdim edilən strategiyası innovasiya fəaliyyətinin inkişafı, regional innovasiya infrastrukturunun yaxşılaşdırılması,qanunvericiliyə mane olan amillərin aşkarlanması üçün anketlərlə zənginləşdirmək təklif edilir. Alınan nəticələri müxtəlif metodların (ranjirovka,proqnoz, SWOT-təhlil) köməyilə təhlil etmək lazımdır.

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**

1. İnnovasiyalar texnika, texnologiya, idarəetmə,habelə əməyin təşkili sahəsində elmi nailiyyətlərə və qabaqcıl təcrübəyə əsaslanan yeniliklərdir;

2. İnnovasiya potensialı yalnız yenilikləri yaratma imkanı, innovasiyaların həyata keçirilməsi deyil, habelə yeniliyin gələcəkdə dünya səviyyəsinə uyğun istifadəyə hazır olması deməkdir;

3. İnnovosiya potensialının qiymətləndirilməsində iki yanaşmadan istifadə olunur:

- konkret layihənin yerinə yetirilməsi imkanlarının aşkar edilməsi məqsədilə göstəricilər sistemi üzrə qiymətləndirmə;
- diaqnostikaya əsasən ekspert metodlarla qiymətləndirmə, yəni daxili və xarici parametrlərin vəziyyətinin tədqiqi.

4. İnnovasiya mədəniyyəti-müəssisənin, personalın, rəhbərliyin əldə edilən yeniliyin qəbul edilməsi, tətbiqi, uğursuzluqlara və ətraf mühitin dəyişməsinə hazırlığıdır.

5.Tikinti sənayesi müəssisələrinin innovasiya potensialının tədqiqi zamanı təqdim edilən strategiyası innovasiya fəaliyyətinin inkişafı,regional innovasiya infrastrukturunun yaxşılaşdırılması, qanunvericiliyə mane olan amillərin aşkarlanması üçün anketlərlə zənginləşdirilməlidir.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Azərbaycan 2020: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. (2021). 2469 Sərəncamı, Bakı.

**2.** Qasımlı V. (2021). "İqtisadi artım". Bakı.

**3.** Məmmədov M.A., Əliyev Ə.M. (2023). Menecment. Bakı. "Elm".

**4.** Tağıyev A.H., İ.B.Əmirov. (2010). "İnnovasiya menecmenti", Bakı.

**5.** Eminov N.O. (2012). İnnovasiya yönümlü iqtisadiyyat: formalaşması və inkişaf problemləri, Bakı-Elm, - 328 səh.

**T.B.Hasanova**
*senior lecturer, Azerbaijan University of Architecture and Construction*
*ORCİD 0000-0001-8382-3675*
**G.I.Mahmudova**
*master student, Azerbaijan University of Architecture and Construction*

## Assessment of the innovation potential of a construction industry enterprise

**Abstract**

*The article explains the essence of innovations, evaluates the innovation potential of a construction industry enterprise, and provides a broad explanation of its characteristic directions.*

*Then, the structural scheme of innovation potential as the main parameter determining the assessment of innovation opportunities in an enterprise and the determination of the innovation development strategy is given, and its components are studied. Since innovation potential depends on management decisions and the implementation of the innovation strategy, its comprehensive assessment is necessary. Finally, innovation potential is considered as the readiness and ability to produce innovations in construction industry enterprises, and it is emphasized that the*

*innovation portfolio consists of innovations in all spheres of activity of the firm based on the process scheme of innovation potential.*

***Keywords:*** *innovation, technology, innovation culture, innovation potential, construction industry enterprises, method, information potential, innovation portfolio.*

**Т.Б.Гасанова**
*ст.преп., Азербайджанский Архитектурно-строительный Университет*
*ORCİD 0000-0001-8382-3675*
**Г.И.Махмудова**
*магистрант, Азербайджанский Архитектурно-строительный Университет*

**Оценка инновационного потенциала предприятия строительной отрасли**

**Резюме**

*В статье излагается суть инноваций, а также деятельность предприятий строительной отрасли. Была дана оценка инновационному потенциалу и дано общее пояснение характеризующих его направлений. Затем была дана структурная схема инновационного потенциала и исследованы его компоненты как основного параметра, определяющего оценку инновационных возможностей предприятия и определение стратегии развития инноваций. Поскольку инновационный потенциал зависит от управленческих решений и реализации инновационной стратегии, необходима его комплексная оценка. В заключение инновационный потенциал рассматривался как готовность и способность к производству инноваций на предприятиях строительной отрасли, и подчеркивалось, что инновационный портфель, исходя из технологической схемы инновационного потенциала, состоит из инноваций во всех сферах деятельности фирмы.*

***Ключевые слова:*** *инновации, технологии, инновационная культура, инновационный потенциал, предприятия строительной отрасли, метод, информационный потенциал, инновационный портфель.*